## Rəsmi sənədlər

# Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2026-cı ildə iyirminci əsr Azərbaycan ədəbiyyatının qüdrətli simalarından biri, Xalq şairi, tanınmış dramaturq və ictimai xadim, SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Səməd Vurğunun (Səməd Yusif oğlu Vəkilovun) 120 illiyi tamam olur.

Səməd Vurğun Azərbaycanın ədəbi fikir salnaməsində yeni parlaq mərhələ başladan görkəmli sənətkardır. Çoxşaxəli fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanan şair nəğməkarı olduğu Odlar diyarını alovlu məhəbbətlə tərənnüm etmişdir. Onun dillər əzbərinə çevrilmiş “Azərbaycan” şeiri hər bir azərbaycanlının ürəyindəki Vətən sevgisinin poetik ifadəsidir. Böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparmış, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirmişdir. Səməd Vurğunun milli poeziyanı yüksəklərə qaldıran romantik və fəlsəfi məzmunlu bənzərsiz lirikası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxildir. Keçmişə ehtiram və gələcəyə inam aşılayan Vurğun dramaturgiyası Azərbaycanın teatr sənəti tarixində xüsusi səhifə təşkil edir. Səməd Vurğunun novator keyfiyyətlərlə zəngin bədii irsi bir məktəb kimi müasir Azərbaycan poeziyasına güclü təsir göstərmişdir və bu gün də gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişməsində əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan görkəmli şair Səməd Vurğunun 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və aidiyyəti qurumlarla birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Səməd Vurğunun 120 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 23 fevral 2026-cı il**

## "Əsərlərin Dövlət Varidatı elan edilməsi qaydaları"nın və "Əsərləri Dövlət Varidatı elan edilən müəlliflərin və Dövlət Varidatı elan edilən filmlərin siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 oktyabr tarixli 438 nömrəli Sərəncamının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Əsərlərin dövlət varidatı elan edilməsi Qaydaları" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Əsərləri dövlət varidatı elan edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin
Siyahısı" təsdiq edilsin (2 nömrəli əlavə).

3. Dövlət varidatı elan edilmiş əsərlərdən istifadəyə görə müəllif qonorarı səviyyəsində xüsusi ödənişlər istifadəçilər tərəfindən "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş Əlavə 3 - "Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının minimum miqdarı"nda göstərilən tarif dərəcələrinə uyğun hesablanaraq, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin xəzinə hesabına köçürülür.

4. Müəyyən edilsin ki, dövlət varidatı elan edilmiş əsərlərin nəşri (çapı) üçün tirajın ümumi məbləğinin 2 (iki) faizi həcmində ödəniş hesablanaraq, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin xəzinə hesabına köçürülür.

5. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi dövlət varidatı elan edilmiş əsərlərdən istifadəyə görə xəzinə hesabına daxil olan vəsaitin dövlət büdcəsinə köçürülməsini təmin etsin.

**Novruz Məmmədov,**
**Azərbaycan Respublikasının Baş naziri**
**Bakı şəhəri, 7 may 2019-cu il**

## Əsərlərin Dövlət Varidatı elan edilməsi Qaydaları

1. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra – Qanun) ilə müəyyən edilmiş müəlliflik hüququnun qüvvədəolma müddəti bitdikdən sonra elm, ədəbiyyat və incəsənət əsərləri ictimai varidata keçir.

2. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi (bundan sonra - Agentlik) qorunma müddəti bitdiyinə görə ictimai varidata keçmiş əsərləri müəyyənləşdirir və onların uçotunu aparır.

3. Agentlik ictimai varidat dairəsinə aid edilmiş Azərbaycan müəlliflərinin elm, ədəbiyyat və incəsənət əsərlərindən elmin, ədəbiyyatın, kino tarixinin və incəsənətin zənginləşməsində müstəsna rol oynayan, geniş oxucu və tamaşaçı kütləsinin dərin rəğbətini qazanan, habelə yüksək bədii, estetik və sənətkarlıq dəyərlərinə malik olan əsərləri aidiyyəti dövlət orqanları və yaradıcılıq təşkilatları ilə razılaşdırmaqla seçərək, onların dövlət varidatı elan olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verir.

4. İctimai varidat dairəsinə aid edilmiş əsərlərdən dövlət varidatı elan edilməsi üçün təklif olunan əsərlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə dövlət varidatı elan edilir.

5. Dövlət varidatı elan edilmiş əsərlərdən istifadə edən hüquqi və fiziki şəxslər həmin əsərlərdən istifadə barədə Agentliyə məlumat verir və istifadənin hər növünə görə müvafiq xüsusi ödənişləri Agentliyin xəzinə hesabına köçürürlər.

6. Agentlik dövlət varidatı elan edilmiş əsərlərdən istifadəyə görə xüsusi ödənişlərin yığımını təşkil edir və onların elektron məlumat bazasını yaradır.

7. Dövlət varidatı elan edilmiş əsərlər istisna olmaqla, ictimai varidat dairəsinə keçmiş əsərlərdən istifadə sərbəstdir və onlardan istifadəyə görə qonorar ödənilmir.

8. Agentlik dövlət varidatı elan edilmiş əsərlərdən istifadə ilə bağlı məlumatları ümumiləşdirir və nəticələr barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə ildə ən azı bir dəfə hesabat təqdim edir.

9. Dövlət varidatı elan edilmiş əsərlərin müəlliflərinin Qanunda təsbit edilmiş şəxsi hüquqları pozulduqda, əsərin mənası dəyişdirildikdə, məzmunu təhrif olunduqda, həmin müəlliflərin vərəsələri və yaxud Agentlik tərəfindən həmin hüquqların bərpası məqsədilə müvafiq məhkəmə iddiası qaldırılır.

10. Bu Qaydalar dövlət varidatı elan edilmiş əsərlərin dövlət sifarişi əsasında və dövlət büdcəsindən ayrılmış vəsait hesabına qeyri-kommersiya məqsədilə istifadəsinə şamil olunmur.

## Əsərləri dövlət varidatı elan edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin siyahısı

1. Əsərləri dövlət varidatı elan edilən müəlliflər:

1.1. Qətran Təbrizi;
1.2. Məhsəti Gəncəvi;
1.3. Əfzələddin Xaqani;
1.4. Nizami Gəncəvi;
1.5. Qazi Bürhanəddin;
1.6. İmadəddin Nəsimi;
1.7. Aşıq Qurbani;
1.8. Şah İsmayıl Xətai;
1.9. Məhəmməd Füzuli;
1.10. Aşıq Abbas Tufarqanlı;
1.11. Molla Pənah Vaqif;
1.12. Molla Vəli Vidadi;
1.13. Qasım bəy Zakir;
1.14. Mirzə Fətəli Axundzadə;
1.15. Həsən bəy Zərdabi;
1.16. Seyid Əzim Şirvani;
1.17. Xurşidbanu Natəvan;
1.18. Mirzə Ələkbər Sabir;
1.19. Nəcəf bəy Vəzirov;
1.20. Aşıq Ələsgər;
1.21. Cəlil Məmmədquluzadə;
1.22. Əbdürrəhim bəy Haqverdiyev;
1.23. Cəfər Cabbarlı;
1.24. Əhməd Cavad;
1.25. Mikayıl Müşfiq;
1.26. Əhməd bəy Ağayev;
1.27. Əli bəy Hüseynzadə;
1.28. Nəriman Nərimanov;
1.29. Məmməd Səid Ordubadi;
1.30. Hüseyn Cavid;
1.31. Əzim Əzimzadə;
1.32. Yusif Vəzir Çəmənzəminli;
1.33. Üzeyir Hacıbəyov;
1.34. Səməd Vurğun;
1.35. Əliağa Vahid.

2. Dövlət varidatı elan edilən filmlər:

2.1. “Sevil ” (1929-cu ildə çəkilmişdir);
2.2. “Lətif ”( 1930-cu ildə çəkilmişdir);
2.3. “İsmət”(1934-cü ildə çəkilmişdir);
2.4. “Mavi dənizin sahilində” 1935-ci ildə çəkilmişdir);
2.5. “Almaz”(1936-cı ildə çəkilmişdir);
2.6. “Bakılılar”(1938-ci ildə çəkilmişdir);
2.7. “Kəndlilər ”(1939-cu ildə çəkilmişdir);
2.8. “Səbuhi”(1941-ci ildə çəkilmişdir)
2.9. “Bir ailə”(1943-cü ildə çəkilmişdir);
2.10. “Arşın mal alan” (1945-ci ildə çəkilmişdir);
2.11. “Görüş” (1955-ci ildə çəkilmişdir).

## Xalq şairi Səməd Vurğunun ev-muzeyinin əsaslı təmiri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Xalq şairi Səməd Vurğunun Bakı şəhərində yerləşən (Tərlan Əliyarbəyov küçəsi, 6) ev-muzeyinin əsaslı təmiri, bədii tərtibatı, zəruri avadanlıq və inventarla təchizatı üçün Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 300,0 (üç yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 13 dekabr 2011-ci il**

## Səməd Vurğunun 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2006-cı ilin mart ayında Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərmiş görkəmli şair Səməd Vurğunun (Səməd Yusif oğlu Vəkilovun) anadan olmasının 100 illiyi tamam olur.

Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən parlaq və təkrarsız səhifələrindən birini təşkil edir. Müasir Azərbaycan dilinin və ədəbiyyatının zənginləşməsində böyük rol oynamış sənətkarın bədii irsi mədəniyyətimizin inkişafında bütövlükdə yeni mərhələ olmuşdur. Azərbaycan Elmlər Akademiyasının ilk akademiklərindən biri olan Səməd Vurğunun görkəmli ictimai-siyasi xadim kimi xidmətləri də təqdirəlayiqdir.

Azərbaycanın xalq şairi Səməd Vurğunun 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Yazıçılar Birliyi ilə birlikdə Səməd Vurğunun 100 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 6 fevral 2006-cı il**